# XXI ƏSRDƏ ABŞ - TÜRKİYƏ MÜNASİBƏTLƏRİ
## (ticarət əlaqələri kontekstində)

***Nurdan Rufulla qızı Əsədova***
Bakı Dövlət Universiteti
nurdan_asadova@mail.ru

**Açar sözlər:** *ABŞ, Türkiyə, ticarət əlaqələri, idxal, ixrac*

*Məqalə XXI əsrdə ABŞ ilə Türkiyə Respublikası arasındakı ticarət əlaqələrinin tədqiqinə həsr olunub. Mövcud rəsmi sənədlər, elmi ədəbiyyat və statistik materiallar əsasında iki dövlət arasındakı ticarət əlaqələrinin statistikası xronoloji ardıcıllıqla göstərilir. Həmçinin, məqalədə ABŞ və Türkiyə Respublikası arasındakı ticarət münasibətlərinin yaranma tarixi tədqiq olunaraq, Giriş hissədə öz əksini tapmışdır.*

*ABŞ - Türkiyə ticarət münasibətləri tədqiq olunarkən hadisə və faktların müqayisəli təhlilinə, ümumiləşdirmələrə, elmi obyektivliyə, habelə məlumatların öyrənilməsində kompleksli yanaşma prinsipinə əməl olunmuşdur.*

# ОТНОШЕНИЯ США- ТУРЦИЯ В XXI ВЕКЕ
## (В КОНТЕКСТЕ ТОРГОВЫХ ОТНОШЕНИЙ)

***Нурдан Асадова***

**Ключевые слова:** *США, Турция, торговая связь, импорт, экспорт*

*Статья посвящена исследованию торговых отношений между США и Турецкой Республикой в XXI веке. Статистика торговых отношений между двумя странами представлена в хронологическом порядке на основе существующих официальных документов, научной литературы и статистических материалов. В статье также исследуется история торговых отношений между США и Турецкой Республикой и отражена во Введении.*

*На основе изучение американо-турецких торговых отношений при помощи сравнительного анализа событий и фактов, обобщения, научной объективности, а также принципа комплексного подхода к изучению данных, в заключительной части статьи свое отражение нашли современные американо-турецкие отношения.*

# US – TURKEY RELATIONS IN THE XXI CENTURY (IN THE CONTEXT OF TRADE RELATIONS)

**Nurdan Asadova**

**Key words:** *USA, Turkey, trade relations, import, export*

*The article is dedicated to the study of trade relations between the United States and the Republic of Turkey in the XXI century. Statistics of trade relations between the two countries are presented in chronological order on the basis of existing official documents, scientific literature and statistical materials. Also, the article examines the history of trade relations between the United States and the Republic of Turkey and is reflected in the Introduction.*

*The study of US – Turkey trade relations is based on a comparative analysis of events and facts, generalizations, scientific objectivity, as well as the principle of a comprehensive approach to the study of data, the article notes the recent US – Turkey relations.*

**Giriş.** Türkiyə - Amerika ticarət əlaqələrini tədqiq edərkən görürük ki, bu münasibətlərin başlanğıcı Osmanlı dövrünə gedib çatır. Belə ki, iki ölkə arasında münasibətlər ilk dəfə XVIII əsrin sonlarında, Ağ dənizdəki Türkiyə limanlarında həyata keçirilən dəniz ticarət yolu ilə başlamış və sonrakı dövrlərdə də inkişaf etmişdir. Türkiyə Respublikası ilə ABŞ arasında ilk diplomatik əlaqələr 1927-ci ilin fevral ayının 11-də Notalar mübadiləsi vasitəsi ilə yaranmışdır. İkinci Dünya müharibəsindən sonra isə ABŞ - Türkiyə ticarət əlaqələri daha da sürətlə inkişaf etməyə başlamışdır.

Qeyd etmək lazımdır ki, ABŞ ilə Türkiyə arasında ticarət əlaqələrinin inkişafının əsasını iqtisadi mənafelərdən əlavə, təhlükəsizlik, siyasi, geostrateji və terrorla mübarizə kimi mühüm məsələlərdə əməkdaşlıq təşkil edir [2, s.857].

**XXI əsrin ilk onilliyində ABŞ - Türkiyə ticarət əlaqələri.** XXI əsrin ilk illərindən başlayaraq Türkiyə şirkətləri imzalanan azad ticarət müqavilələri ilə xammal və s. idxal edərək, onları emal edib, daha sonra son məhsulu yenidən sataraq, Türkiyə mallarının Avropa İttifaqının ticarət mallarına qarşı rəqabət qabiliyyətini artırmışdılar. Türkiyənin xarici ticarətində ixrac mallarının müxtəlifliyi yeni bazarlara giriş prosesinə səbəb olmuşdur. Həmçinin, bütün bunlar ABŞ ilə yeni ticarət əlaqələrinin yaranmasında mühüm əhəmiyyət kəsb etmişdir. Qeyd edək ki, dünyanın ən güclü iqtisadiyyatına malik olan ABŞ "Azad Ticarət Müqaviləsi" məsələsində də dünyada ən çox addımlar atan ölkələrdən biri olmuşdur. Belə ki, ABŞ 2000-ci illərdən etibarən ikili, regional





və qlobal səviyyədə bazarların açılması, ticarət əlaqələrinin asanlaşdırılması üçün aktiv və ciddi şəkildə fəaliyyət göstərmişdir [4, s.83].

Qeyd etmək lazımdır ki, 2001-ci il iqtisadi böhranından sonra Türkiyə iqtisadiyyatı yalnız Ədalət və İnkişaf Partiyasının (AKP) hakimiyyəti dövründə normallaşmağa başlamışdır. Bu dövrdən etibarən Türkiyə Respublikası ABŞ ilə hərbi sahədən əlavə, digər əlaqələrini, xüsusilə, iqtisadi və ticarət əlaqələrini daha da inkişaf etdirməyə səy göstərmişdir. İki dövlət arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi həm Türkiyə, həm də ABŞ üçün əhəmiyyətli olmuşdur. Beləliklə, iqtisadi əməkdaşlıq ABŞ - Türkiyə münasibətlərini dərinləşdirməyə kömək etmişdir. Nəticədə, tezliklə ABŞ Türkiyənin beynəlxalq ticarət payının 7,9%-ni təşkil edərək, sadəcə Rusiya və Çindən geri qalmışdı [3, s.73].

2002-ci ildə Türkiyə ABŞ-a 3.356 milyon dollar dəyərində mal ixrac etmiş, 3.099 milyon dollar dəyərində mal isə idxal etmişdir. Göründüyü kimi, idxal və ixrac demək olar ki, bərabərlik təşkil etmişdir. Bu vəziyyət 2006-cı ilin sonlarına qədər davam etmişdir. 2007-ci ildə isə Türkiyədən ABŞ-a 4.170 milyon dollarlıq mal ixrac edilməsinə baxmayaraq, ixracat təxmini iki dəfə çox olaraq, 8.166 milyon dollar olmuşdur.

**XXI əsrin ikinci onilliyində ABŞ - Türkiyə ticarət əlaqələri. Transatlantik azad ticarət strategiyasının Türkiyənin xarici ticarətinə təsiri.**

2011-ci ildə Türkiyənin mal ixrac etdiyi ölkələrinin siyahısında ABŞ 45-ci sırada olmuşdur. 2012-ci ildən etibarən isə Türkiyənin ABŞ-la ümumi ticarəti 19,73 milyard dollar olmaqla, olduqca aşağı səviyyə təşkil etmişdir. Türkiyənin ümumi ixracatında ABŞ-ın payı 4%, ABŞ-ın ixracatında Türkiyənin payı isə 0,81% idi. Bu dövrdə ABŞ-dan Türkiyəyə satılan hər 1 dollarlıq məhsula qarşı, Türkiyə 3 dollarlıq məhsul idxal etmişdir. Qeyd olunan statistika, bu dövrdən etibarən ABŞ ilə Türkiyə arasında ticarət münasibətlərinin məhdudlaşdırıldığını göstərir [4, s.87-88].

2013-cü ilin fevral ayının 13-də ABŞ və Avropa İttifaqı "Transatlantik Ticarət və İnvestisiya Tərəfdaşlığı (TTIP)" strategiyasının müzakirəsi məqsədi ilə ən yüksək səviyyədə danışıqlara başlamışdır. Əslində bu danışıqların əsas məqsədi dünya ticarət sistemində ABŞ və Avropa İttifaqı tərəfindən "oyunun qaydaları"nı yenidən formalaşdırmaq və bununla da Türkiyə də daxil olmaqla bir çox ölkələrin xarici ticarət sisteminə öz təsirini göstərmək olmuşdur.

Almaniya İqtisadiyyat və Texnologiya Nazirliyi tərəfindən bu məsələ ilə əlaqədar tədqiqat aparılmış və "Transatlantik Ticarət və İnvestisiya Tərəfdaşlığı (TTIP)" strategiyasının dövlətlərə ola biləcək təsirləri qeyd olunmuşdur. Belə göstərilir ki, bu strategiyanın ən mühüm rifah artırıcı təsiri ABŞ və Böyük Britaniyaya, mənfi təsiri isə Çin, Hindistan, Rusiya, Türkiyə və b. ölkələrə

olacaqdır. Həmçinin, qeyd olunur ki, Türkiyənin xarici ticarət sisteminə bu təsir -2,5% olacaqdır.

Türkiyədə Transatlantik müqaviləsinə qarşı digər bir narahatlıq isə ölkədən ixrac olunan məhsulların ABŞ bazarlarında Avropa mənşəli məhsullar qarşısında eyni şərtlərlə rəqabət avantajını əldə edə bilməyəcəyi olmuşdur. Yaranmış bu vəziyyət qarşısında Türkiyədə ABŞ ilə Azad Ticarət Müqaviləsi ("Serbest Ticaret Anlaşması" - STA) imzalamaq daha əlverişli, bir növ çıxış yolu ola biləcəyi fikri meydana gəlmişdir. Bu mövzuda dövrün baş naziri R.T.Ərdoğanın ABŞ-a səfəri zamanı iki tərəf arasında STA yaradılması məqsədi ilə Yüksək Səviyyəli İşçi Komitə (YSÇK) qurulması üçün razılaşmanın əldə edilməsi mühüm əhəmiyyət kəsb etmişdir. Əgər ABŞ - Türkiyə Azad Ticarət Müqaviləsi imzalanarsa, əsas vacib olan məsələlər də müəyyən edilmişdir. Bunlar investisiyaların qorunması, kənd təsərrüfatı, əczaçılıq sənayəsi, tekstil və geyim məhsulları ticarəti və s. olmuşdur [1, s.1, 11, 13, 15].

2013-2017-ci illərdə ABŞ - Türkiyə iqtisadi və ticarət əlaqələrində nisbətən yüksəlmə özünü göstərsə də, ümumilikdə əvvəlki illərlə eynilik təşkil etmişdir.

2016-cı ildə Türkiyənin ən çox idxal etdiyi 20 ölkə içərisində ABŞ dördüncü sırada idi. Bundan əlavə, Türkiyədə 1702 ABŞ kapitalına sahib şirkət fəaliyyət göstərmişdir.

Qeyd etmək lazımdır ki, ticarət əlaqələrinə iki ölkə arasındakı diplomatik münasibətlərin inkişafının da təsiri olmuşdur [5].

2017-ci ildən başlayaraq 2019-cu ilin əvvəllərinə qədər ABŞ - Türkiyə ticarət münasibətləri demək olar ki, özünün ən yüksək səviyyəsinə çatmışdır.

Bəhs olunan dövrdə Xarici İqtisadi Əlaqələr Şurası (DEİK) və Türkiyə - ABŞ İş Şurasının (TAİK) sədri M.A.Yalçındağ D.Trampın ABŞ Prezidenti olmasından sonra Türkiyə və ABŞ arasındakı iqtisadi əlaqələrin yeniləndiyi, son illərdə F-35 və S-400 kimi məsələlərin siyasi münasibətlərdə gərginliyə səbəb olmasına baxmayaraq, iqtisadi münasibətlərin bundan heç təsirlənmədiyini bildirmişdir. O, Türkiyə və ABŞ arasındakı ticarət həcminin 2015 və 2016-cı illərdəki 17,5 milyard dollar səviyyəsindən D.Trampın Prezident olduğu illərdə təxmini 20 milyard dollar səviyyəsinə qədər yüksəldiyini qeyd etmişdir. Həmçinin, M.A.Yalçındağ "cənab Trampın və cənab Ərdoğanın göstərdikləri iradənin Amerika və Türkiyə işgüzar dairələri arasında əməkdaşlığın inkişafı istiqamətində daha geniş bir sahə yaratdığını fikirləşirəm" ifadələrini işlətmişdir.

Bundan əlavə, M.A.Yalçındağ TAİK tərəfindən 100 milyard dollarlıq ticarət həcmini hədəfləyən ABŞ-ın aparıcı konsaltinq şirkəti olan "Boston Consulting Group"a keçən il, yəni 2018-ci ildə bir hesabat hazırladıqlarını xatırladaraq, bu fikirləri bildirmişdir ki, hesabatda əsas hədəf sektorları təyin





etdik və bu sektorların nümayəndələrindən ibarət bir işçi qrupu yaratdıq. Məqsədimiz bu sektor nümayəndələrini müəyyənləşdirdiyimiz pərakəndə sektorda fəaliyyət göstərən ABŞ şirkətləri ilə bir araya gətirməkdir. 14-16 aprel tarixlərində Vaşinqtonda iki ölkənin xüsusi sənaye liderlərindən əlavə, bəzi nazirlərin də iştirak edəcəyi illik konfransımızın əsas mövzusuda 100 milyard dollarlıq ticarət hədəfi olacaqdır.

Lakin, 2019-cı ildə iki ölkənin ticarət əlaqələrində nisbətən zəifləmə özünü göstərir. Belə ki, Türkiyə Statistika Təşkilatının (TÜİK) məlumatlarına görə, Türkiyə ilə ABŞ arasındakı xarici ticarət həcmi 2019-cu ilin yanvar – noyabr aylarında bir il əvvəlki dövrə görə 7% azalaraq, təxmini 17,7 milyard dollar olub. Beləliklə, Türkiyənin ABŞ-a ixracı 2,7% azalaraq 7,4 milyard dollar, ABŞ-dan idxal isə 9,8% azalma ilə 10,3 milyard dollar təşkil edib [6].

2020-ci ildə isə ABŞ - Türkiyə ticarət əlaqələri yüksələn xətt üzrə inkişaf etmişdir. Bu məsələ ilə əlaqədar 2020-ci ilin sentyabr ayında ABŞ-ın Ticarət naziri Vilbur Ros, Xarici İqtisadi Əlaqələr Şurası Türkiyə - ABŞ İş Şurası ilə ABŞ Ticarət Palatası tərəfindən təşkil edilən 38-ci Türk - Amerikan Konfransında (videokonfransda) çıxış edərkən danışmışdır. O, qeyd etmişdir ki, "Prezident Donald Tramp və Prezident Rəcəb Tayyib Ərdoğan ikitərəfli əlaqələrin inkişafı barədə fikirlərini bölüşürlər və ölkələrimiz ticarət həcmini 100 milyard dollara çatdırmaq hədəfi üçün çalışırlar".

Eyni zamanda, V.Ros çıxışında 1700 Amerikan şirkətinin Türkiyədə fəaliyyət göstərdiyini bildirərək, bu şirkətlərdən 60-nın regional mərkəzlərinin Türkiyədə olduğunu qeyd etmişdir. Amerikan şirkətlərinin 78 min Türk işçini işlə təmin etdiyinə diqqət çəkən nazir ABŞ-ın Türkiyədən idxalının bir əvvəlki illə müqayisədə 3% artımla 10,6 milyard dollara çıxdığını, "gələcək illərdə həm iqtisadi, həm də ticarət əlaqələrimizi gücləndirməyi gözləyirik" ifadələrini işlətmişdir [7].

**Nəticə.** XVIII əsrdən başlayan ABŞ - Türkiyə ticarət əlaqələri bu gün də davam etməkdədir. Qeyd etmək lazımdır ki, iki ölkə arasındakı ticarət münasibətləri müxtəlif dövrlərdə fərqli şəkildə təzahür etmişdir. Məsələn, Türkiyə 1952-ci il fevral ayının 18-də NATO-ya üzv olmuş və ABŞ ilə NATO daxilində ikili müqavilədə müdafiə və təhlükəsizlik əməkdaşlığı həyata keçirilmişdir. Bu səbəbdən də ABŞ eyni zamanda müdafiə sənayesində Türkiyənin əsas idxal və ixrac ortağı olmuşdur.

XXI əsrin əvvəllərindən etibarən Türkiyədə Ədalət və İnkişaf Partiyasının (AKP) hakimiyyətə gəlişindən sonra ABŞ - Türkiyə iqtisadi və ticarət əlaqələri xüsusilə inkişaf etmişdir. Həmçinin, bu dövrdə iki ölkə arasında siyasi müstəvidə anlaşılmazlıqlar, gərginliklər olmasına baxmayaraq, bütün bunlar ABŞ və Türkiyənin ticarət münasibətlərinə güclü təsir göstərməmişdir.

Son on ildə isə ABŞ - Türkiyə ticarət həcmi 1,5 dəfədən çox artmışdır.

## Ədəbiyyat


i. Akman M.S. AB - ABD Transatlantik ticaret ve yatırım ortaklığı (TTIP) ve Türkiye. Türkiye Ekonomi Politikaları Araştırma Vakfı, Haziran 2013, 17 s.
ii. Aytekin İ, Uçan O. Ticaret Savaşları ve Korumacı Politikalar: Amerika Birleşik Devletleri ve Türkiye İlişkileri Bakımından Bir İnceleme. Bitlis Eren Üniversitesi, Sosyal Bilimler Enstitüsü Dergisi, №2, Aralık 2018, 851-862 s.
iii. Bilen S. Turkey and USA foreign relations between 2009 and 2015. İstanbul Aydın Universitesi sosyal bilimler enstitüsü müdürlüğü, 2015, 119 s.
iv. Telli R. Transatlantik Serbest Ticaret Anlaşması Sürecinde AB - ABD ve Türkiye. İşletme ve İktisat Çalışmaları Dergisi, №3, 2016, 81-90 s.
v. Türkiye-ABD Ekonomik İlişkileri, 13.10.2017. URL: https://www.dogrulukpayi.com/bulten/turkiye-abd-ekonomikiliskileri
vi. Türkiye-ABD ticari ilişkileri istikrarını koruyor. 19.01.2020 URL: https://www.hurriyet.com.tr/amp/ekonomi/turkiye-abd-ticari-iliskileri-istikrarini-koruyor-41423286
vii. Zengin D. ABD Ticaret Bakanı Ross, Türkiye ve ABD arasındakı ticari ilişkileri değerlendirdi. 22.09.2020 URL: https://www.aa.com.tr/tr/dunya/abd-ticaret-bakani-ross-turkiye-ve-abd-arasindaki-ticari-iliskileri degerlendirdi/1982193